# VƏRƏM XƏSTƏLİYİNİN TƏSİRİNƏ MƏRUZ QALMIŞ İNSANLARIN HÜQUQLARI HAQQINDA BƏYANNAMƏ



Stop TB Partnership

TB PEOPLE

Declaration_for print_A5_Azeri.indd 1 27.02.2020 1:00:31

# Vərəm Xəstəliyinin Təsirinə Məruz Qalmış İnsanların Hüquqları Haqqında Bəyannamə

*Preambula:*

Biz, vərəm xəstəliyinin təsirinə məruz qalmış insanların qlobal birliyi olaraq,

Vərəm xəstəliyinin təsirinə məruz qalmış insanalrın hüquqlarının müdafiəsinin və təşviqinin-hüquqi, mənəvi və etik imperiativliyini, habelə vərəmin zərərinə məruz qalmış insanlar və birliklər arasında vərəmə qarşı əksepidemik tədbirlərin effektivliyinin artırılması bu insanların iztirablarının azaldılmasının effektivliyinə yönəldilməli olduğunu **qəbul edərək;**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış insanların hüquqlarının pozulmalarını yaratmış  və hal-hazırda da yaradraq, eyni zamanda da vərəmə qarşı hərəkətsizlik çərçivəsində bu hüquq pozulmalarının mövcud olmasını və  bunun da vərəmin ləğvində əsas maneələrdən birinin olmasını nəzərə alaraq, vərəm xəstəliyi nəticəsində yaranan iztirablara aid edilərək insanlar arasında mövcud səhiyyə sisteminə qarşı  inamın itməsi faktını **qəbul edərək;**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış və bu sahədə zəngin təcrübəsi olan vərəmin təsirinə məruz qalmış insanlar  bütün yerli, milli, regional və qlobal  vərəm proqramlarının tətbiqi, monitorinqi və



Declaration_for print_A5_Azeri.indd 2-3 27.02.2020 1:00:31

qiymətləndirilməsində iştirakının vacibliyini **qeyd edərək;**

Vərəmlə mübarizədə yalnız tibbi və ya sağlamlığın qorunmasına yönəldilmiş tədbirlərin kifayət olmamasını nəzərə alaraq, vərəmin diaqnostikasına, müalicəsinə, profilaktikasına,vərəmli pasientlərə qulluq və onlara dəstəyin kompleks yanaşmasının insan hüquqları əsasında sağlamlığın qorunmasının ayrılmaz hissəsi kimi **nəzərdə saxlayaraq;**

İnsan hüquqları üzrə beynəlxalq və regional hüquqi əsasnamələrə və sənədlərə tərəfdaş çıxmış dövlətlər hal-hazırki bəyannamənin məzmununu **təsdiq edərək:**

- *İnsan hüquqlarının ümumi bəyannaməsi;*
- *İqtisadi , sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt;*
- *İctimai və siaysi hüquqlar haqqında beynəlxalq pakt;*
- *Qadınlara qarşı bütün növ diskriminasiyanın ləğvi barədə konvensiya;*
- *İrsi diskriminasiynın bütün növlərinin ləğvi üzrə beynəlxalq konvensiya;*
- *Uşaq hüquqları haqqında konvensiya;*
- *Bütün növ işgəncələrə, digər zorakılığa və insan ləyaqətini alçaldan rəftara və qeyri insani davranışa və cəzaya qarşı konvensiya;*
- *Bütün əmək miqrantları və onların ailə üzvlərinin müdafiəsi haqqında beynəlxalq konvensiya;*
- *Əlillər haqqında konvensiya;*
  və
- *Qaçqınların statusları haqqında konvensiya;*

Habelə regional səviyyəli sənədlərdən:



- *Xalqların və insanların hüquqları haqqında Afrika xartiyası;*
- *Uşaq mənafeləri və hüquqları haqqında Afrika xartiyası;*
- *İnsan hüquqları haqqında Amerika konvensiyası;*
- *İnsan hüquqları haqqında Ərəb xartiyası;*
- *İnsan hüquqları haqqında Avropa xartiyası; habelə*
- *Avropa sosial xartiyası; habelə*

O cümlədən bütün deyilənlərlə bağlı 2030-cu ilə qədər dayanıqlı inkişafa dair məqsədləri, Vərəmlə mübarizə haqqındakı Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının Yüksək səviyyəli zirvə görüşünün siyasi deklarasiyasını, vərəmin ləğv edilməsi sahasində “Vərəmə son qoyaq” Partnyorluğunun Qlobal planını, Ümumdünya Sağlamlıq Assambleyasının qətnamələrini, İnsan hüquqları və azadlıqları haqqında Birləşmiş Millətlər Təşkilatının Rəhbər prinsiplərini, BMT-nın yerli xalqların hüquqları haqqında Qətnamənin, BMT-nın hüquq üzrə xüsusi nümayəndəsinin çıxış və qərarlarını, Vərəmin ləğvi haqqında Ümumdünya Səhiyyə Təşkilatına daxil olan üzv dövlətlər tərəfindən bəyanilərək qəbul edilmiş strategiyasını - vərəmlə mübarizənin əsas hərəkətverici prinsipləri, habelə insan hüquqlarının,etikasının və ədalətin müdafiəsi kimi qəbul edərək, habelə ictimai təşkilatların və birliklərin güclü koalisiyasını **nəzərə alaraq;**

## Vərəm xəstəliyinin təsirinə məruz qalmış insanların hal-hazırki Bəyannaməsini işləyib hazırladılar



Declaration_for print_A5_Azeri.indd 4-5 27.02.2020 1:00:31

**1-cü hissə. Ümumi müddəalar**

Maddə 1. **Müəyyənləşdirmə**

Hal-hazırki bəyannamədə aşağıdakı üəyyənləşdirmələrdən istifadə edilir:

*Vərəm xəstəliyi zamanı tibbi yardım* - pasientin infeksion olduğu bütün müddətdə və xəstəlik periodu zamanı, bütün həyatı boyu daimi qulluğa ehtiyyacı olan insanların xüsusi öyrədilib təlimatlandırlımış, hörmət qoyan, stiqmadan kənar, mədəni xüsusiyyətlərə malik olan səhiyyə işçiləri tərəfindən nozologiyasından asılı olmayaraq ağ ciyər, ağ ciyərdən kənar, zərərli yan təsirlər ilə müşayət olunan dərmana həssas, dərmana davamlı kimi vərəmli pasientlərə xəstəliyin diaqnostikası, müalicəsi, profilaktikası ilə bağlı ən effektiv yüksəkkeyfiyyətli tibbi təchizatın və xidmətlərin tətbiqi ilə diaqnostika vasitələri ilə, dərmanlarla, konsultasiya xidməti, digər psixoloji dəstək, uzunmüddətli hospitalizasiya, qismən və ya tamamilə əlilliyiə görə buna ehtiyyac yaranarsa daimi qulluq, birliklər çərçivəsində, palliativ və həyatının son anlarında qulluq, müalicə zamanı monitorinq və yan təsirlərin idarə edilməsi, habelə başqa terapevtik və təxirəsalınmaz yardımlar.

*Vərəm xəstəliyinin təsirinə məruz qalmış* - vərəm xəstəliyi ilə nə vaxtsa xəstələnmiş və yaxud hal-hazırda bu xəstəlikdən əziyyət çəkən, habelə belə pasientlərə qulluq edən yaxın qohumlar, uşaqlar, tibb işçiləri, İİV-li insanlar, narkotik istifadə edən insanlar, qazmaçılar, mobil əhali qrupları, miqrantlar, qadınlar, habelə şəhər və kənd ərazilərinin az təminatlı əhali qrupları bu qismdə vərəm kontekstində zərərçəkmiş qrupların nümayəndələri.



*Vərəm* - ağ ciyər vərəmi, ağ ciyərdən kənar vərəm, dərmana həssas vərəm və dərmana davamlı vərəmin bütün formalarını özündə ehtiva edən vərəm xəstəliyinin bütün formaları.



Declaration_for print_A5_Azeri.indd 6-7 27.02.2020 1:00:31

**2-cü hissə. Vərəm xəstəliyinin təsirinə məruz qalmış insanların hüquqları**

Maddə 2. **Yaşamaq hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın yaşamaq hüququ vardır.

Bu hüquq vərəm xəstəliyi zamanı həyatın xilası üçün tibbi yardımı da özündə ehtiva edir.

Maddə 3. **Ləyaqət hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın özünə qarşı hörmət və şəxsi ləyaqətinin qorunması hüququ vardır.

Bu hüquq hər bir insana ictimai səhiyyə sisteminin məqsədlərə nail olmaq üçün istifadə etməli olduğu meyar kimi yox, tibb müəssisələrində və o cümlədən də cəzanın icra olnduğu yerlərdə də müstəqil individium kimi özünə verdiyi dəyər, yanaşma çərçivəsində stiqmadan və hüquqlarının diskriminasiyasından kənar, fikirüstələməsindən və məcbur etmə hallarından kənar bir akt kimi özündə birləşdirir.

Maddə 4. **Fiziki və psixi sağlamlığın mövcud olan ən üstün nailiyyətlər hesabına qorunma hüququ (sağlamlıq hüququ)**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın



fiziki və psixi sağlamlığın mövcud olan ən üstün nailiyyətlər hesabına qorunma hüququ vardır.

Bu hüquq səhiyyə xidmətlərinin ayrılmaz komponenti kimi uşaqlara rahat təyin edilə bilən fiksə olunmuş dərman dozalarından və vərəm infeksiaysı zamanı müraciət edən əhalinin ilkin müraciəti zamanı onlarda vərəm infeksiyasının mövcudluğunun sübut olunduğu andan xəstəliyin tam müalicə periodu boyunca mütəmadi qulluq tələb edən dövrə qədər əhalinin zərərçəkmiş və həssas təbəqələri arasında profilaktik terapiya və yoxlamaların vərəm xəstəliyi zamanı əlçatan, qəbul edilə bilən və ehtiyyac yarandıqda birliklər səviyyəsində xüsusi təlim keçmiş tibb işçiləri tərəfindən hörmət qoyulan şəkildə, ləyaqətli məcbur etmədən, stiqamdan və hər hansı diskriminasiyadan uzaq, yaşından, dərisinin rəngindən, mədəni mənsubiyyətindən, vətəndaşlığından, əlilliyindən, etnik mənsubiyyətindən, maddi vəziyyətindən, gender identikliyindən, dilindən, hüquqi statusundan, siyasi və başqa baxışlarından, digər xəstəliyin mövcudluğundan, milli və sosial mənşəyindən, irqindan, dinindən, cinsindən, seksual orientasiyasından və digər başqa hallardan habelə dövlət tərəfindən həbs edilmiş və ya digər formada azadlığının məhdudlaşdırılması halında- vərəm kontekstində hədəf qrupu olduqda yüksəkkeyfiyyətli tibbi yardım almağına yönəlməlidir.

Maddə 5. **İşgəncələrdən, qeyri-insani yanaşmalardan, digər qəddar, şərəf və ləyaqəti alçaldan rəftardan azadlıq hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın



Declaration_for print_A5_Azeri.indd 8-9 27.02.2020 1:00:31

işgəncələrdən, qeyri-insani yanaşmalardan, digər qəddar, şərəf və ləyaqəti alçaldan rəftardan azad olma hüquq vardır. Bu hüquq özündə dövlət tərəfindən azadlıqları məhdudlaşdırılımış və digər başqa formalarda azadlıqdan məhrum edilmiş şəxslərin dövlət hesabına istənilən hər hansı bir diskriminasiyadan uzaq tibbi yardım almaq hüququnu özündə ehtiva edir. Bu hüquq həm də cəzanı icra edən orqanın nəzarəti altında olduğu müddətdə pasientin lazımi ləyaqətli, təhlükəsiz və gigiyenik, normadan artıq adam sıxlığı olmayan və kifayət qədər ventilyasiyası olan yaşayış şəraitində və lazımi keyfiyyətli qida ilə təmin edilmə şərtləri ilə saxlanmanı tənzimləyir.
Eyni zamanda ictimai səhiyyə müəssisələrində tibb heyəti tərəfindən işgəncə, digər başqa qeyri-insani və ləyaqəti alçaldan hal səviyyəsinə çatdırılan vərəm xəstəliyindən müalicə alan pasientlər də bu hüquqdan bəhrələnirlər.

Maddə 6. **Hər-hansı diskriminasiyadan azadlıq və bərabərlik hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insan hüquq qarşısında bərabər olub hər hansı istənilən bir formada diskriminasiyanın istənilən növündən uzaq olaraq yaşından, doğum yerindən, dərisinin rəngindən, mədəni aidiyyatılığından, vətəndaşlığından, əlilliyindən,etnik mənsubiyyətindən, maddi vəziyyətindən, gender idientikliyindən, dilindən, hüquqi statusundan, siyasi və ya hər hansı digər baxışlarından, hər hansı başqa bir xəstəliyinin olmasından, milli və ya sosial mənşəyindən, irqindən, dini inancından, cinsindən, seksual orientasiyasından və ya digər bu sənəddə sadalanmamış hər hansı bir başqa haldan asılı olmadan hamıya eyni



dərəcədə şamil olunan qanun və azadlıqlardan istifadə etmək hüququna malikdir.

Bu hüquq vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir şəxsə onun bütün həyat sferasında istənilən hər bir diskriminasiyadan azad olmaqla yanaşı dövlət və sosial təminatlarına əlçatan olmaq, ailə qurmaq, ana olmaq və dünyaya uşaq gətirmək, yaşayış şəraiti qurmaq, təhsil almaq, işlə təmin olunmaq, səhiyyə xidmətlərindən yararlanmaq kimi hüquqlarından tam istifadəyə xidmət edir.

Maddə 7. **Şəxsi toxunulmazlıq və azadlıq hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın şəxsi toxunulmazlıq və azadlıq hüququ vardır. Vərəmlə xəstəliyinin təsirinə məruz qalmış heç bir kəs qanunvericilikdə göstərilmiş hallar istisna olmaq şərti ilə azadlıqdan məhrum edilə bilməz. Barəsində azadlıqdan məhrum etmə qəti imkan tədbiri tətbiq olunmuş, vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir şəxs özünə qarşı humanist yanaşma və insan azadlıqlarına hörmət edilməsi hüquqna malikdir.

Vərəm xəstəliyinin təsirinə məruz qalmış pasientin məcburi izolyasiyası, hospitalizasiyası və ya məcburi saxlama halları - şəxsiyyətin azadlıqdan məhrum etmə halı kimi qiymətləndiriləmək onun şəxsi toxunulmazlığının pozulmasıdır. Pasientin məcburi izolyasiyasına və müalicəsinə Ümumdünya Səhiyyə Təşkilatının *"Vərəm xəstəliyinin ləğvi strategiyası"* nın həyata keçirilməsi üzrə etik rəhbərliyin 15-ci hissəsinin tələbləri əsasında ancaq



Declaration_for print_A5_Azeri.indd 10-11
27.02.2020 1:00:31

xüsusi hallar və vəziyyətlər zamanı maksimum qısa vaxt çərçivəsində icazə verilə bilər. Sənəddə qeyd edilmiş bu xüsusi hallar toplanmış dəqiq tibbi məlumatlar əsnasında aşağıdakı nüansları özündə birləşdirir:

- İnfeksiyadan bütün qorunma tədbirləri ona başa salınsa da pasient yoluxdurucu olduğunu bilsə də effektiv müalicədən imtina edir;
  YAXUD
- İnsan yoluxdurucu olmasını anlayır, ambulator müalicəyə razılıq versə də sonradan onun ev şəraitində infeksiyaya nəzarət imkanlarının olmaması məlum olur.;
  YAXUD
- Böyük ehtimala görə insan yoluxdurucu ola bilər (labarator məlumatlara əsasən), lakin, onun sonrakı müalicə planının hazırlanması üçün bütün əməli hərəkətlər edilsə də o öz infeksion statusunun qiymətləndirmə müayinəsindən keçməsinə imtina edir.

Bundan əlavə Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası tərəfindən təsdiq edilmiş *"Vətəndaşlıq və Siyasi Hüquqlar haqqında Pakt" haqqındakı əsasnaməyə izahlar və əlavələr haqqında Sirakuz prinsiplərinə* əsasən vərəmli pasientin məcburi saxlanaraq hospitalizasiya və izolyasiya edilməsi aşağıdakı hallarda mümkündür:

1. Azadlıqdan məhrumetmə anında qüvvədə olan milli qanunvericiliyin tələbləri bunu tələb edir;
2. Əhalinin və ya cəmiyyətin ayrı-ayrı üzvlərinə qarşı ciddi təhlükəyə əsasən qanuni məqsədlər bunu tələb edir;



3. Vəziyyət çox ciddi hal alır;
4. Məqsədə çatmaq üçün ən az məhdudlaşdırıcı hərəkət sayılır;
   O CÜMLƏDƏN
5. Özbaşına, təhqiredici və diskriminasion deyildir.

Deyilənlər təsdiqləndiyi hallarda belə vərəmli pasientin nəzarət altına alınması, hospitalizasiyası və izolyasiyası tibbi nöqteyi nəzərdən düzgün olan effektiv infeksiyaya nəzarət altında yuxarıda sadalanmış hallar mövcud olana qədər ən az maksimal vaxt üçün həyata keçirilməlidir; şəxs ancaq könüllü əsaslarla tibbi yardım almalıdır; məhkəmə araşdırması və şikayət mexanizminin mövcudluğu və əlçatanlığı təmin edilməlidir. Dövlət ən azından insanın kifayət qədər qida, su və digər tələbatlarını elə təmin etməlidir ki, pasientin hüquqlarının məhdudlaşdırılması ancaq öz məqsədinə çatmağa xidmət etsin.

## Maddə 8. **Azad hərəkətetmə və yerdəyişmə hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın hansı dövlətin ərazisində yaşamağından asılı olmayaraq həmin dövlətin daxilində azad hərəkətetmə və yerdəyişmə hüququ vardır.

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın öz ölkəsi də daxil olmaqla istədiyi ölkəni tərk etmək hüquq vardır.

Yuxarıda qeyd olunan hüquqlar qanunda göstərilən hallar: dövlət təhlükəsizliyinin müdafiəsi, ictimai asayişin qorunması, əhalinin sağlamlığının və mənəviyyatının



Declaration_for print_A5_Azeri.indd 12-13 27.02.2020 1:00:31

qorunması kimi bütün digər insan hüquq və azadlıqlarının qorunması sahəsindəki beynəlxalq sazişlərin və bu bəyannamənin 7-ci maddəsinin şərhi kimi hallar istisna olmaqla heç bir  başqa məhdudiyyətlərin obyektinə çevrilə bilməzlər.

Bu deyilənlər onu təsdiq edir ki, vərəm xəstəliyi hər hansı bir vərəmlə xəstələnmiş pasientin istənilən ölkənin ərazisinə girişinə və ya təkrar grişinə imtina və maneə  ola bilməz, eləcə də heç bir ölkədən deportasiya üçün əsas ola bilməz . Eyni zamanda da Ümumdünya Səhiyyə Təşkilatının *"Vərəm xəstəliyinin ləğvi strategiyası"* nın həyata keçirilməsi üzrə etik rəhbərliyin 15-ci hissəsinin və bu bəyannamənin 7-ci maddəsinin konkret tələblərindən savayı vərəm xəstəliyi pasientin dövlətin ərazisində azad hərəkətinə maneə ola bilməz.

## Maddə 9. **Şəxsi və ailə azadlığı hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış heç bir insanın şəxsi və ailə  həyatına, onun yazışma sirrinə, yaşayış ərazisinin toxunulmazlığına, habelə, şəxsiyyətinə və mənafeyinə qanunsuz və dolayı yolla müdaxilə yolverilməzdir. Vərəm xəstəliyindən zərərçəkmiş hər bir insanın qanun tərəfindən belə hallardan müdafiə olunmaq hüququ vardır.

Bu hüquq vərəmlə xəstələnmiş insanların öz səhhətlərinin, sağlmalığının habelə özləri haqqında şəxsi və tibbi informasiyanın qorunub saxlanılmasını özündə ehtiva edir . Eyni zamanda həmin hüquq belə pasientlərə ailə qurmaq,



uşaq sahibi olmaq və onları tərbiyyə edib qayğılarına qalmaq kimi hallara da şamil edilir.

## Maddə 10. **Konfidensiallıq hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın özü və xəstəliyi haqqında şəxsi və tibbi məlumatların konfidensial saxlanılmasını tələb etmək hüququ vardır.

Bu onu izah edir ki, Vərəm xəstəliyinin təsirinə məruz qalmış insan barəsindəki şəxsi və tibbi məlumatların, əmək mübahilələri də daxil olmaqla, yalnız həmin şəxsin özünün məlumatı olub razılıq verdiyi hal və ya ancaq onun özünün və ya ictimai sağlamlığın qorunması kimi hallar istisna olmaqla konfidensial saxlanılmalıdır . Yəni ictimai sağlamlığın qorunması, epidemioloji nəzarətə ehtiyyac yarandıqda və ya səhiyyəyə yardım xidmətləri proqrammlarının icarsı  labüd olduqda pasientin şəxsiyyətini müəyyən edən adının və digər identifikasiya məlumatlarının anonimləşdirilməsi hesabına pasientin özü məlumatlandırlımadan bu informasiya təqdim oluna bilər.

Konfidensiallıq hüququ həmçinin ictimai səhiyyə tədbirləri zamanı  kontakt məlumatlarının izlənilməsi və bununla bağlı digər meydana çıxan əməliyyatların hazırlanması zamanı nəzərə alınaraq hörmət obyekti kimi qəbul edilməlidir.Bu hüquq eyni zamanda təlim keçmiş tibb və sosial sahə işçilərinə proses zamanı vərəm xəstəliyinin təsirinə məruz qalmış insanların diaqnozlarının açıqlanmasını mümkün yoluxmanın harda və necə baş verməsini və  birgə məlumatlı olaraq qərar qəbul edilməsini  məhdudlaşdırmayaraq özündə ehtiva edir.



Declaration_for print_A5_Azeri.indd 14-15 27.02.2020 1:00:31

Maddə 11. **İnformasiya almaq hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın informasiya axtarmaq, almaq və yaymaq hüququ vardır.

Bu öz-özlüyündə vərəm xəstəliyinin simptomlarını, vərəm haqqında tibbi tədqiqatları və səhiyyə sahəsində inkişaf etmiş texnologiyalar da daxil olmaqla vərəm infeksiyası və xəstəliyi, müalicənin gedişatı zamanı meydana çıxan preparatların yan effektləri də daxil olmaqla onun müalicəsi haqqında məlumatlar əlçatan və geniş olaraq hər bir yaş kateqoriyasına,cinsə və mədəniyyət səviyyəsinə aid anlaşılan olub informasiya axtaran insanın başa düşəcəyi şəkildə əldə oluna bilinməlidir.

Eyni zamanda Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insan minimum aşağıdakı hüquqlara malikdir:

- Tibbi məlumatlar barəsində sorğu edib məlumat almaq;
- Əsasən əhali ilə hədəf qrupları arasında onların xəstəliyi və ya infeksiyası barəsində vaxtında, dəqiq və dolğun məlumat almaq;
- Diaqnozun qoyulduğu andan müalicənin bitdiyi ana qədər istənilən vaxt könüllü məsləhət ala bilmək;
- Mövcud olarsa müalicə üçün ayrılan maliyyə xərcləri və riskləri barəsində, profilaktik müalicə də daxil olmaqla aparılacaq müalicə barəsində, habelə müalicənin alternativi barəsində, adı, dozası, potensial yan təsirləri və bu təsirləri dəf etmək və ya azaltmaq barəsində, həmçinin təyin olunmuş vərəmələyhinə preparatların İİV infeksiyası yaxud digər ko infeksiyalar olduğu təqdirdə antiretrovirus preparatlar kimi başqa preparatlarla müştərək təsiri barəsində təyin olunmuş hər bir preparat barəsində izahat almaq.



Maddə 12. **Məlumatlı razılıq hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın məlumatlı razılıq alma hüququ vardır.

Bu insana könüllü tibbi xidmətlər vasitəsi ilə muxtariyyət və öz müqəddəratına, ləyaqətinə hörmət deməkdir olaraq, vərəm xəstəliyi ilə bağlı bütün növ diaqnostika, müalicə və tibbi tədqiqatlarla bağlı olan hallar daxil olmaqla yaşa, cinsi mənsubiyyətə, mədəni dəyərlərə əsasən informasiyanın yazılı və ya şifahi razılıq hüququ əsasında qeyri texniki, informasiya alan insanın başa düşdüyü anlaşıqlı dildə özündə situasiyadan asılı olaraq birləşdirir. Məlumatlı razılıq verə bilmək iqtidarında olmayan vərəm xəstəliyinə məruz qalan uşaqlara diaqnostik, müalicəvi və tibbi tədqiqatlarla bağlı əməllərin həyata keçirilməsi onların valideynləri və qanuni qəyyumları tərəfindən uşağın bütün maraqlarının qorunması şərti ilə dəqiq tibbi məlumatlar əsasında həyata keçirilməlidir.

Məlumatlı razılıq hüququ eyni zamanda *"Vərəm xəstəliyinin ləğvi strategiyası"* nın həyata keçirilməsi üzrə etik rəhbərliyin 15-ci hissəsinin tələbləri əsasında vərəm xəstəliyi zamanı tibbi yardımdan imtina hallarını da nəzərdə tuturaq fiziki toxunulmazlığa qarşı atılan addım və habelə tibb işçilərinə qarşı risk olmaq etibari ilə heç bir halda vərəmin məcburi müalicəsinin yol verilməz olmasını qəbul edir.



Declaration_for print_A5_Azeri.indd 16-17 27.02.2020 1:00:31

Maddə 13. **Təhsil hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın təhsil almaq hüququ vardır.

Bu hüquq zəif eşidən və zəif görən əlillər də daxil olmaqla qeyri-diskriminasion əsaslarla hər bir insana pulsuz və icbari ibtidai təhsil almaq, eyni zamanda da orta, orta texniki, peşə təhsili və ali təhsil pilləsinə qəbul olmaq imkanı verir . İnfeksion yoluxdurucu olduqları və müalicə aldıqları halda vərəmlə xəstə olan uşaqların üzürlü səbəbə görə təhsil məşğələlərinin təxirə salınması da daxil olmaqla təhsillə bağlı hər cürə başqa - fasiləsiz onlayn təhsil qaydasında sinif məşğələlərində iştirak etmək kimi təhsil üsulundan istifadə etmək hüququ vardır. Bəzi hallarda vərəm xəstəliyi toxunmuş uşaqların hospitalizasiyası uzun çəkəcəyi halda, onlar bütün müalicə kursu daxilində distansion təhsil almaq hüququna malikdirlər.

Maddə 14. **Əmək hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın əmək hüququ vardır və belə insanlardan heç biri heç bir şəkildə qul əməyinə o cümlədən də icbari və məcburi əməyə cəlb edilə bilməzlər.

Bu hüquq vərəm xəstəliyi ilə işləyən və yoluxma təhlükəsi böyük olan qazmaçılar, əmək miqrantları, səhiyyə müəssisələri və orada işləyən səhiyyə işçiləri və digər əməkdaşlar da daxil olmaqla təhlükəsiz və sağlam əmək şəraitini özündə ehtiva edir . Bu hüquq eyni zamanda bütün gender nümayəndələrinin özlərinə münasib iş



seçməklə işə qəbul edilməsində sərbəst qərar vermələri ilə yanaşı eyni zamanda da əməyinə görə ədalətli əmək haqqı və digər insanlarla bərabər iş növündə bərabər həvəsləndiricilərlə təmin edilmələrini özündə birləşdirir .

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın vərəm diaqnozu qoyulduqdan sonra və onun yoluxdurucu olub lazımi müalicə alması zamanı iş yerində məzuniyyətlər, iş arası fasilələr kimi hallar vasitəsi ilə əmək münasibətlərinin tənzimlənməsini dəyişməz saxlamaq hüququ vardır . Vərəmlə xəstə olan pasientin sonradan xəstəliyi ilə əlaqədar olaraq uzun müddətli hospitalizasiyası habelə qismən və ya tamamilə əlilliyi yarandığı hallar meydana çıxarsa və qanuna, eyni zamanda da əmək müqaviləsinin şərtlərinə görə pasient öz iş yerini saxlamaq və əmək fəaliyyətini davam etdirmək iqtidarında olmazsa hal-hazırki deklarasiyanın 18-ci maddəsinin tələblərinə əsasən sosial təminat almaq hüququ qazanır.

Maddə 15. **Adekvat qidalanma hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın adekvat qidalanma, ac və yarıac qalmaqdan qorunma hüququ vardır.

Bu hüquq belə insanlara öz adekvatlığı ilə kifayət qədər təhlükəsiz və qidalandırıcı olan, müalicə prosesində qidalandırıcı əlavə terapiya şəkilində müalicəyə dayaq olan, cəzaçəkmə müəssisələrində cəza çəkən insanlara xüsusi əhəmiyyətli olan eyni zamanda da belə qidaların əldə edilməsinə lazım olan qədər fiziki və iqtisadi əlçatan olmağı özündə birləşdirir.



Declaration_for print_A5_Azeri.indd 18-19
27.02.2020 1:00:31

Maddə 16. **Yaşayış yeri hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın adekvat yaşayış yeri hüququ vardır.

Bu hüquq vətəndaşın məcburi yaşayış yerindən köçürülməsi, təqib olunması və digər başqa təhlükələrin olmaması üçün mülkiyyətçilik hüququ zəminində əlçatan və yaşayışa münasib olan məkanda yaşayış yerinin olması hüququnu özündə cəm edir. Bu hüquqa əsasən eyni zamanda həm də yaşaış yerinin sadə insani yaşayış üçün vacib olan xidmətlərin - təchizat materiallarının və infrastrukturun, lazımi sanitar şəraitin, ventilyasiyanın, lazımi işıqlandırılmanın, isitmənin və vaxtaşırı məişət tullantılarının daşınma xidmətlərinin mövcud olmasını tənzimləyir.

Maddə 17. **Su təchizatı və sanitar şərait hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın su təchizatı və sanitar şəraitə malik olmaq hüququ vardır.

Bu hüquq heç bir diskriminasiya olmadan xüsusilə kənd yerlərində, az inkişaf etmiş şəhər tabeli rayonlar kimi inzibati ərazilərdə, qadınların və uşaqların tələbatını xüsusi ilə nəzərə alaraq qeyri formal yaşayış məskənlərində və eləcə də evsiz-eşiksizlər də daxil olmaqla insanların təhlükəsiz içməli su və lazımi sanitar gigiyenik xidmətlərə əlçatan olmağını özündə birləşdirir.



Maddə 18. **Sosial təminat hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın, onun özündən asılı olmayan səbəblərdən öz var-dövlətini itirməsinə görə habelə işsizliyə, əlilliyə, qocalığa görə sosial sığorta və sosial təminat hüququ vardır.

Bu ona dəlalət edir ki, vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insan vərəm xəstəliyindən müalicə almadığı və müalicə rejiminə əməl etmədiyi hallarda belə heç bir diskriminasiya tətbiq edilmədən sosial təminatın bütün növlərinə əlçatan qalaraq belə təminat almaq hüquqna malikdir . Bu hüquq xəstəliyin, əlilliyin, analığın, məişət travmalarının, işsizliyin, qocalığın və ailə üzvünün ölümünün, lazımi səhiyyə xidmətinin olmamasının, öhdəsində olan uşaq və ya böyük şəxslərin gəlirlərinin olmamasına görə istər natural, istərsə də maliyyə formasında olan vəsaitlərə əlçatan olmağı və saxlanmağın labüd olmasını özündə ehtiva edir . Öz iş fəaliyyəti zamanı vərəm ilə yoluxmuş və ya xəstələnmiş hər bir insan düçar olduğu peşə xəstəliyi ilə əlaqədar istər tibbi, istərsə də digər başqa məsrəfləri dayanıqlı olaraq kompensasiya etmək hüququna malikdir .

Maddə 19. **Azad fikir bildirmə hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın azad olaraq öz fikrini bildirmək hüququ vardır.

Bu hüquq səlahiyyətli dövlət orqanları tərəfindən heç bir təqibə məruz qalmadan sosial şəbəkələr və ya istənilən vasitə ilə öz rəyinə əsaslanıb vərəm xəstəliyi haqqında və



Declaration_for print_A5_Azeri.indd 20-21 27.02.2020 1:00:31

vərəm xəstəliyi keçirmiş insanların təcrübələri də daxil olmaqla  informasiya materialları və ya ideyaları əldə etməyi azad fikir mübadiləsi aparmağı özündə birləşdirir.

## Maddə 20. **Azad toplaşma və qarşılıqlı assosiasiya hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın azad sülhməramlı toplaşma və digər şəxslərlə qarşılıqlı assosiasiya hüququ vardır.

Bu hüquq cəzaçəkmə yerləri də daxil olmaqla bütün vərəm xəstəliyindən əziyyət çəkən insanların hüquqlarının və qanuni maraqları və mənafelərinə xidmət edən və ya belə insanları özündə cəm edən qeyri-hökumət təşkilatlarının yaradılması, birləşdirilməsi və onun işində iştirakı kimi halları,   eyni zamanda da vərəm problemi ilə bağlı toplaşmaları və sülhməramlı etiraz aksiylarının təşkilini və keçirilməsini özündə ehtiva edir.

Bu hüququn tətbiqi vərəm xəstəliyi ilə xəstələnmiş insanları özündə birləşdirən və onların  maraqları və rifahları naminə fəaliyyət göstərən qeyri hökumət təşkilatlarının yaradılması üçün müsbət münbit hüquqi mühitin yaranmasını tələb edir. Bu hüquqların həyata keçirilməsinə dövlət qanunvericiliyində nəzərdə tutulmuş demokratik cəmiyyətdə  dövlətin və cəmiyyətin təhlükəsizliyi, ictimai asayişin qorunması, əhalinin sağlamlığının və mənəvi dəyərlərinin habelə cəmiyyətin digər nümayəndələrinin hüquq və azadlıqlarının qorunması üçün nəzərdə tutulmuş hallar  istisna edilməklə heç bir məhdudiyyət qoyulmur . Hal-hazırki maddə silahlı



qüvvələrin və polisin tərkibinə daxil olan insanların bu hüquqdan istifadə etmələrinə qanuni məhdudiyyətlərin qoyulmasına maneə yaratmır.

## Maddə 21. **İştirakçılıq hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın dolayı yolla habelə təşkilatların və ya sərbəst seçilmiş təmsilçilərin vasitəsi ilə ictimai işlərin yerinə yetirilməsində iştirak etmək hüququ vardır.

Bu hüquq kənar köməklərə yeri gəldikdə isə dövlətin təəsübkeşliyi ilə və eləcə də vətəndaş cəmiyyəti təşkilatları, yerli qruplar və habelə beynəlxalq təşkilatlar tərəfindən bütün idarəetmə səviyyələrində vərəm sahəsindəki tədqiqatlar və vərəm xəstəliyinin müalicəsinə kömək vərəmlə bağlı olan proqramların bütün proses və mexanizmlərinin realizasiyasının, büdcəsinin, əsasnamələrinin, qaydalarının, siyasətinin, monitorinqinin və qanunlarına qiymət verilməsinin işlənib hazırlanmasında lazımi iştirakı kimi aspektlərini özündə birləşdirir.

## Maddə 22. **Ədalət və layiqli məhkəmə çəkişmələri hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın inzibati və cinayaət qanun pozuntularında təqsirləndirildikləri zamanı onun hüquqlarının pozulması halları olarsa qanunun tələbləri ilə təsis olunaraq effektiv və qanunsuz ləngimə halları olmamaq şərti ilə vaxtında göstərilən hüquqi müdafiə ilə təmin edilmiş müstəqil



Declaration_for print_A5_Azeri.indd   22-23
27.02.2020   1:00:31

və ədalətli məhkəmədə ictimaiyət üçün də açıq olan təhqiqatlara cəlb edilməni tələb etmə hüququ vardır. Bu hüquq həm də tibb müəssisələrinə qanunla və digər normativ-hüquqi aktlarda nəzərdə tutulduğu hallarda göstərildiyi kimi şikayətlər verməyi və qısa bir müddətdə bu şikayətlər baxılmağa, eyni zamanda da şikayətlərinə baxılmasının və verilmiş qərarla razı olmadıqları təqdirdə vərəm xəstəliyi toxunmuş insanların daha yuxarı instansiyalara appelyasiya şikayəti verərək bu zəmində işləri üzrə başa düşdükləri dildə və yazılı formada qərar və izahlar almaq hüquqlarını özündə ehtiva etmiş olur.

## Maddə 23. **Elmi tərəqqinin nəticələrindən istifadə etmək (elmlə məşğul olmaq) hüququ**

Vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insan elmi tərəqqinin bütün nailiyyətlərindən istifadə etmək və fəaliyyətində onu tətbiq etmək hüquqna malikdir.

Bu hüququn tətbiqi nəticəsində vərəm xəstəliyinin təsirinə məruz qalmış hər bir insanın heç bir diskriminasiya olmadan bilik və informasiya kimi qeyri maddi hallar və ya vərəmin diaqnostikası, müalicəsi və profilaktikası sahəsindəki yeni texnalogiyalar kimi nəzərə çarpacaq nəticələrdən asılı olmadan yerli xalqların kollektiv əqli mülkiyyətinə və eləcə də təbii resursların müdafiəsinə hörmət zəminində elmi nailiyyətlərin nəticələrinə çıxış imkanı olmalıdır . Bu hüququn tələbləri eyni zamanda tədqiqat proqrammlarının işlənib hazırlanmasından kliniki sınaqlara qədər iştirakçılığı da özündə birləşdirir .

Bu hüquq eyni zamanda da dövlətlərdən elmin qorunması, inkişafı və yayılması üstünlüyünü tələb edir.



Bu - tədqiqatların aparılması üçün hüquqi və siyasi şəraitin yaradılmasına investisiya qoymaq, ictimai səhiyyənin elmi əsaslara söykənən proqramlarının və siyasətinin tənzimləmə sisteminin yaradılmasının, əldə olunmuş nailiyyətlərin dərci hesabına elmi və onun tətbiqini ümum əlçatan edərək elmi tərəqqini qoruyub onu gələcək nəsillərə ötürülməsini təmin etmək kimi dövlət öhdəçiliklərini tələb edir.



Declaration_for print_A5_Azeri.indd 24-25 27.02.2020 1:00:31

**3-cü hissə. Öhdəçiliklər və cavabdehliklər**

Maddə 24. **Beynəlxalq və regional insan hüquqları üzrə dövlətlərin öhdəlikləri**

Hal-hazırki bəyannamədə qeyd olunan hüquqlar da daxil olmaqla  dövlətlərin üzərinə - vərəm xəstəliyi toxunmuş insanlara hörmət və onların hüquqlarının müdafiəsi və həyata keçirilməsi kimi hüquqi öhdəçiliklər düşmüş olur.

I. **Hörmət öhdəçiliyi:** Dövlətlər vərəm xəstəliyinin təsirinə məruz qalmış insanların öz hüquqlarını həyata keçirmələrinə mane olmaqdan çəkinməlidirlər;
II. **Müdafiə öhdəçiliyi:** Dövlətlər Vərəm xəstəliyinin təsirinə məruz qalmış insanları, onların öz hüquqlarını həyata keçirmələrinə mane ola biləcək tibb xidmətləri üzrə fərdi sahibkarlar, tibbi sığorta fəaliyyəti ilə məşğul olan fərdi kompaniyalar, farmasevtik və diaqnostik kompaniyalar kimi qeyri-hökumət subyektləri də daxil olmaqla üçüncü şəxslərdən müdafiə etməlidirlər;
III. **İcra öhdəçiliyi:** Dövlətlər vərəm xəstəliyinin təsirinə məruz qalmış insanların hüquqlarının həyata keçirilməsi istiqamətində öz maksimum resursları daxilində qanunverici, inzibati, büdcə, informativ və digər başqa tədbirlər görməlidirlər.



Maddə 25. **İnsan hüquqları çərçivəsində beynəlxalq və regional qanunvericiliyə əsasən qeyri dövlət subyektlərinin vəzifə öhdəlikləri**

Qeyri dövlət subyektləri, habelə tibbi xidmətlər göstərilməsi ilə məşğul olan fərdi təşkilatlar, fərdi tibbi sığorta ilə məşğul olan sığorta kompaniyaları, farmasevtik və diaqnostik kompaniyalar, və başqa bu kimi təşkilatlar da daxil olmaqla bütün kommersiya təşkilatları bu bəyannamədə göstərilmiş vərəm xəstəliyinin təsirinə məruz qalmış insanların hüquqlarına hörmət etməlidirlər. Bu qeyri dövlət subyektləri belə insanların hüquqlarını pozmaqdan və bu hüquq pozulmalarına gətirib çıxara biləcək istənilən hərəkətlərdən çəkinməlidirlər.



Declaration_for print_A5_Azeri.indd 26-27 27.02.2020 1:00:31

2019-cu ilin may ayında dərc olunmuşdur

Əlaqə saxlayın TBpeople:

facebook.com/tbpeople, twitter @realTBpeople,
info@tbpeople.org.uk

Əlaqə saxlayın "Vərəmə son" Partnyorluğu:

facebook.com/StopTBPartnership,
instagram.com/stoptb, twitter @StopTB,
www.stoptb.org, communications@stoptb.org

Declaration_for print_A5_Azeri.indd 28-29 27.02.2020 1:00:31

# VƏRƏM XƏSTƏLİYİNİN TƏSİRİNƏ
## MƏRUZ QALMIŞ İNSANLARIN HÜQUQLARI HAQQINDA BƏYANNAMƏ



Vərəm xəstəliyinin təsirinə məruz qalmış insanların hüquqları haqqında bəyannamənin işlənib hazırlanması Beynəlxlaq inkişaf agentliyi ABŞ (USAİD) agentliyinə və Amerika xalqının dəstəyinə görə mümkün olmuşdur.

Sağlamlığa Xidmət

Vərəmsiz Gələcəyə Doğru

Stop TB Partnership

TB PEOPLE